# "Azərbaycan Respublikası hökuməti və Mavritaniya İslam Respublikası hökuməti arasında energetika sahəsində əməkdaşlıq haqqında" Sazişin təsdiq edilməsi barədə

AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

Azərbaycan Respublikasının Milli Məclisi **qərara alır:**

"Azərbaycan Respublikası hökuməti və Mavritaniya İslam Respublikası hökuməti arasında energetika sahəsində əməkdaşlıq haqqında" 2010-cu il iyulun 15-də Bakı şəhərində imzalanmış saziş təsdiq edilsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 22 oktyabr 2010-cu il
№ 1107-IIIQ

**Azərbaycan Respublikası Hökuməti və Mavritaniya İslam Respublikası Hökuməti arasında energetika sahəsində əməkdaşlıq haqqında**

## SAZİŞ

Bundan sonra ayrı-ayrılıqda "Tərəf" və birlikdə "Tərəflər" adlandırılan Azərbaycan Respublikası Hökuməti və Mavritaniya İslam Respublikası Hökuməti,

ikitərəfli qarşılıqlı iqtisadi maraqların inkişafını,

Azərbaycan Respublikasının energetika sahəsində böyük təcrübəyə malik olmasını,

Mavritaniya İslam Respublikasının bu sahədə mövcud resurslara sahib olmasını və iqtisadiyyatın ən vacib sahəsi olan energetikanın inkişafına əhəmiyyət vermələrini nəzərə alaraq,

hər iki tərəfin energetika sahəsində fəaliyyət göstərən dövlət və özəl müəssisələri arasında birbaşa əlaqələrin qurulması və inkişafı üçün əlverişli şəraitin yaradılması məqsədilə,

aşağıda qeyd olunanlar üzrə razılığa gəldilər:

Maddə 1

Tərəflər energetika sahəsində əməkdaşlıq və əlaqələrini qarşılıqlı faydalılıq prinsipləri əsasında inkişaf etdirəcəklər.

Maddə 2

Tərəflər dövlətlərinin mövcud milli qanunvericilikləri çərçivəsində energetikanın müxtəlif sahələrində, o cümlədən yataqların işlənilməsində, avadanlığın istehsalında, ehtiyat hissələrinin hazırlanmasında və bu istiqamətdə xidmət və ticarətin təşkil edilməsində bir-birinə köməklik edəcəklər.

Tərəflər ətraf mühitin qorunması sahəsində beynəlxalq standartlar əsasında ümumiləşdirilmiş metodologiyanın hazırlanmasına dəstək verəcəklər.

Maddə 3

Tərəflər energetika sahəsi (neft, elektroenergetika və s.) üzrə mütəxəssislərin hazırlanmasında və onların ixtisaslarının artırılmasında Azərbaycan Respublikasının elmi-texniki potensialından səmərəli istifadə edilməsi məqsədilə ikitərəfli danışıqların aparılmasının təşkili üçün səy göstərəcəklər.

Maddə 4

Tərəflər ikitərəfli əlaqələrin möhkəmləndirilməsi məqsədilə Azərbaycan Respublikası və Mavritaniya İslam Respublikasında energetika sahəsində keçirilən tenderlər, sərgi və konfranslara aidiyyəti və maraqlı olan şirkətlərinin dəvət olunmasını təmin edəcəklər.

Maddə 5

Bu Sazişin təfsiri və tətbiqi ilə əlaqədar ortaya çıxan anlaşılmazlıqlar Tərəflər arasında məsləhətləşmələr yolu ilə öz həllini tapacaqdır.

Maddə 6

Tərəflərin qarşılıqlı razılığı əsasında bu Sazişə onun ayrılmaz hissəsi olan və bu Sazişin 7-ci maddəsində nəzərdə tutulan qaydada qüvvəyə minən və ayrıca protokollarla rəsmiləşdirilən əlavə və dəyişikliklər edilə bilər.

Maddə 7

Bu Saziş onun qüvvəyə minməsi üçün zəruri dövlətdaxili prosedurların yerinə yetirilməsi haqqında Tərəflərin diplomatik kanallar vasitəsilə sonuncu yazılı bildirişinin alındığı tarixdən qüvvəyə minəcəkdir.

Bu Saziş beş il müddətinə bağlanılır və Tərəflərdən biri bu Sazişin müddətinin bitməsinə ən az altı ay qalmış onu ləğv etmək niyyəti barədə yazılı şəkildə digər Tərəfə diplomatik kanallar vasitəsilə məlumat verməzsə, onun qüvvəsi avtomatik olaraq növbəti beş il müddətə uzadılacaqdır.

Bakı şəhərində "15 " iyul 2010-cu il tarixində hər biri iki əsl nüsxədə olmaqla Azərbaycan və ərəb dillərində imzalanmışdır. Bütün mətnlər eyni qüvvəyə malikdir.

**Azərbaycan Respublikası**
**Hökuməti adından**

**Natiq ƏLİYEV,**
**Sənaye və Energetika Naziri**

**Mavritaniya İslam Respublikası**
**Hökuməti adından**

**Naha Mint HƏMDİ ULD MUKNƏSS,**
**Xarici İşlər və Əməkdaşlıq Naziri**